Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 12 (1140) 22 yanvar - 23 yanvar 2016-cı il

# MASALLI - 2015

(əvvəli ötən sayımızda)

**Həsənli Ərazi İnzibati Dairəsində fəaliyyət göstərən həkim məntəqələri, səhiyyə ocaqları da rayon rəhbərliyinin həmişə diqqət və qayğısı ilə əhatə olunmuşdu. Ona görə də bu ərazidə təkcə xəstəxana, həkim məntəqəsi deyil, həm də ailə həkimləri də fəaliyyət göstərirlər. Səhiyyə işçilərinin işgüzarlığı nəticəsində ərazinin 1 yaşdan 6 yaşa qədər olan sakinlərinin demək olar ki, böyük əksəriyyəti zəruri peyvəndlənmə prosesinin iştirakçısı olmuşdu. Rəqəmlərlə ifadə etsək, bu ərazinin 2700 nəfərə yaxın uşaq peyvənd edilmişdi.**

> **"Hər bir kənd təsərrüfatı əməkçisi, hər bir fermer, sahibkar, ümumiyyətlə kənd təsərrüfatı ilə məşğul olan və bu sahəyə diqqət yetirmək məsuliyyəti daşıyan təşkilatlar, qurumlar birmənalı şəkildə zəruri olan bütün tədbirləri görməlidilər. Elə etməliyik ki, insanlarımız öz əməklərinin bəhrəsini görsünlər və heç bir ərzaq problemi ilə qarşılaşmasınlar".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***

Bu gün bu ərazidə 2 kitabxana, kənd klubu, eləcə də mədəni-kütləvi tədbirlərin keçirilməsi üçün böyük imkanları olan mədəni obyektlər sakinlərin ixtiyarındadı. Yəni ərazi vahidinin istənilən sakini kənd kitabxanalarından, klubdan istifadə edə bilər.

Qızılabad kəndində olduğu kimi, Həsənli ərazi vahidində də müasir ATS quraşdırılmış, sürətli internet xətti istifadəyə verilmiş və həmin istifadəçilərin sayı isə təqribən 500 nəfərə çatmışdı. Bu da onu göstərir ki, kənd sakinləri müasirliyin ortaya qoyduğu maksimal şəraitdən yararlanmağı bacarırlar. Bu ərazi vahidində də işıq, su, elektrik enerjisi və bu sahələrlə əlaqəli bütün tədbirlər yüksək səviyyədə görülməklə insanların tələbatının daha yaxşı ödənilməsində müəyyən irəliləyişlərə nail olunmuşdu.

Bəli, Masallı rayonunun Həsənli İnzibati Ərazi Vahidində təsərrüfatın müxtəlif sahələri sürətlə inkişaf etdirilir. Burada da heyvandarlığa önəmli yer ayırılır. Ötən ilin yekunlarına dair hesabatda göstərildiyi kimi, Masallının Həsənli Ərazi İnzibati Dairəsində təqribən 2400 baş xırda buynuzlu, 3100 başdan artıq qaramal bəslənmişdi. Bəslənilən bu iri və xırda buynuzlu heyvanların say artımı rayonda ət, süd məhsullarının istehsalının da yüksəlməsinə rəvac vermişdi.

Burada bir məqamı da xatırlatmaq yerinə düşər ki, ötən il Həsənli Ərazi Dairəsində əkinə də xüsusi önəm verilmiş və əkinçiliklə məşğul olanlar üçün subsidiyaların ayrılması, gübrə təminatı, toxumla yardım edilməsi kimi hallar da gündəmdə olmuşdu. Nəticədə bu dairədə təqribən 1200 hektar əkin aparılmış, bunun da 600 hektardan çoxu buğda, yerdə qalan digər hissəsi isə arpa, vələmir, yonca, tərəvəz, bostan məhsulları üçün nəzərdə tutulmuşdu. İlin yekunlarına nəzər salsaq onda görərik ki, Masallı rayonunda əldə edilən uğurlarda Qızılavar kəndi kimi Həsənli kəndi də öz müsbət sözünü deyə bilmiş və göstərdiyi nəticələrlə təkcə rayonun, respublikanın deyil, həmçinin sakinlərin özlərinin ailə büdcəsinin möhkəmlənməsinə öz töhfələrini verə bilmişdilər.

Məlum olduğu kimi, Masallı rayonunda bostan-tərəvəz məhsullarına münasibət və bu məhsulların becərilməsi həmişə diqqət mərkəzində olmuşdu. Ona görə də rayon sakinləri öz yardımçı təsərrüfatlarından əldə etdikləri bol məhsulun müəyyən hissəsini ölkə paytaxtında və digər şəhərlərimizdə keçirilən yarmarkalara da çıxara bilmişdilər. Yəni bu bolluq hər bir insanın ailə büdcəsinin də möhkəmlənməsinə, bərəkətli olmasına öz təsirin göstərmişdi. Faktiki olaraq bu bolluğun verdiyi imkandan çıxış edən sakinlər özlərinin mədəni həyatlarını da qurmağı bacarmışlar. Belə ki, əraziyə su xətlərinin çəkilməsi, telefon, işıq problemlərinin aradan qaldırılması, üstəlik ərazidəki kənd klubunun əsaslı təmin edilməsi söylədiklərimizə bir nümunədir.





Bu gün Masallı rayonuna yolu düşən hər kəs birmənalı şəkildə etiraf edə bilər ki, rayonun işıq, qaz, su problemlərinin çözümü rayon rəhbərliyinin diqqət mərkəzindədi. Rayon icra hakimiyyəti başçısı yanında yaradılmış ictimai nəzarət qrupunun fəaliyyəti nəticəsində qarşıya çıxan problemlər dərhal yerindəcə öz həllini tapı rvə aradan qaldırılır. Bu da adamların müstəqil dövlətimizə, onun iqtidarına inamını, güvəncini bir az da artırır. Hər kəs açıq şəkildə görür və bilir ki, hər bir azərbaycanlının prezidenti olan cənab İlham Əliyevin diqqət və qayğısı onun da üzərindədi. Yəni regionun hansı nöqtəsində yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı, onun tmsalında həp bir Masallı sakini ölkə prezidentinin qarantı altındadı. Təbii ki, bu qarant da insanların sabaha ümidini artırmaqla onların xoş güzəranına bir stimuldu. Məhz bu inamla yaşayıb, işləyib sabaha doğru addımlayan Azərbaycan insanı, o cümlədən də Masallı sakinləri son günlərin hadisələrini, regionda və dünyada baş verən iqtisadi problemləri anlayışla izləyir və ölkəmizin iqtisadi böhrandan tez və az itki ilə çıxacağına əminlik ifadə edirlər. Çünki Azərbaycanın təkcə hər bir region üçün nəzərdə tutulmuş sosial-iqtisadi inkişaf proqramı böyük proqramların tərkib hissəsidir. Deməli, bizim sabaha olan inamlı inkişaf proqramımız da ortadadı.

**(Ardı var)**

***Ceyhun RÜSTƏMOV***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ